Ədalət.- 2023.- 8 noyabr, №43.-S.8.

# Ağdamda Azərbaycan teatrının 150 illik yubileyi - «Naməlum Axundzadə» tamaşası

**Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir.**

Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayaraq Mədəniyyət Nazirliyinə Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirilməsinə göstəriş verdi.

Məlumdur ki, Azərbaycan teatrı XIX əsrin taleyüklü ictimai-siyasi hadisələri fonunda köklü dəyişikliklər baş verərkən böyük maarifçi Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza dram janrını gətirdiyi və xalq teatrının peşəkar milli teatra çevrildiyi bir vaxtda təşəkkül tapmışdır.

Həmin dövrdə ziyalılarımızın Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynamışdır. Bununla əlaqədar mədəniyyət nazirliyinin keçirdiyi layihələr silsiləsindən birisi Ağdam dövlət dram teatrında baş tutub.

"Yuğ" Teatrının quruluşçu rejissoru Gümrah Ömər Ağdam teatrının kollektivi ilə "Postdramatik teatr" nəzəriyyəsi və metodikası haqqında ustad dərslər keçmiş və nəticədə Axundzadə ədəbi yaradıcılığı əsasında "Naməlum Axundzadə" mistik komediyasına quruluş vermişdir.

4 noyabr tarixində layihənin nəticəsi Ağdam tamaşaçıları qarşısında oynanılmışdır. Yeni üslubda hazırlanmış tamaşa böyuk maraqla qarşılanmışdır.

Tamaşada teatrın aktyorları, Elşən Cavadov, Nuranə Əliyeva, Fərhad Fərhadzadə, əməkdar artist Aidə Qasımova, Elmir Hümbətov, Xəyalə Xudatova, Hakim Cəfərli və Zərifə Ağayeva maraqlı rollar oynamışdılar. Tamaşanın səhnə dizaynı Qönçə Həzizadə, rejissor asistenti Ceyhun Yusifov, musiqi tərtibatı Azər Şükürova məxsus idi.

**Qeyd edək ki, Ağdam Dövlət Dram Teatrı Qarabağ bölgəsinin ən qədim tarixə malik teatrıdır. 1902-ci ildə böyük ədibimiz Əbdürrəhim bəy Haqverdiyev və yerli ziyalıların köməkliyi ilə dram dərnəkləri təşkil edilib. İlk tamaşa isə 1910-cu ildə Ə.B.Haqverdiyevin "Dağılan tifaq" və Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" əsərləri teatrın səhnəsində oynanılıb. 1923-cü ildə isə teatra Dövlət Teatrı statusu verilib. Həmin tarixə əsasən də bu il həm də Ağdam teatrının 100 illik yubileyidir.**

**Əntiqə Rəşid**